# KOMPRESSOR STANSIYALARININ LAYIHƏLƏNDIRILMƏSI VƏ ISTISMARININ ƏSASLARI.

Fənn: Qazların sıxılması və kompressor stansiyaları
Səviyyə: Baza, ümumi əsaslar
Müddət: 5 gün
Təlimatçı: İlqar Babayev

Məşgələlər zamanı söyləniləcək mühazirələr qazların sıxılmasına, onların sıxılması üçün tətbiq edilən kompressor aqreqatlarına, bu cür aqreqatlardan ibarət olan kompressor stansiyalarının layihələndirilməsinə və istismarına həsr ediləcək.

**Nəzərdə tutulur:**

Məşqələlər, qazların sıxılaraq nəql edilməsi üçün tətbiq edilən kompressor aqreqatlarından ibarət kompressor stansiyalarının layihələndirilməsində, tikintisində və istismarında iştirak etmək üçün hazırlanan (maarifləndirilən) mütəxəssislər auditoriyası üçün təşkil edilir.

Eyni zamanda, kompressor stansiyalarının istismarı və idarə edilməsində iştirak edən başqa mütəxəssislərin də bu işlərlə əlaqədar baza biliklərinə malik olmaları vacibdir.

**Tanışlıq material:**

- Qazların təzyiqindən asılı olan texnoloji parametrlərin dəyişməsi və kompressorlarla sıxılan qazlara qoyulan tələblər;
- Kompressorların növləri, iş prinsipləri və tətbiq sahələri;
- Kompressor stansiyalarının tərkibi;
- Kompressor stansiyalarında istifadə edilən avadanlıqlarının təyinatı və onların iş prinsipləri;
- Kompressor stansiyalarının tikintisi üçün avadanlıqların təyin edilməsi və seçilməsi qaydaları;
- Kompressor stansiyalarında texnoloji boru kəmərlərinin hesablanması qaydaları;
- Kompressor stansiyalarında soyutma sistemləri və onların növləri;
- Kompressor stansiyalarının təhlükəsiz istismarı.

**Kursun tərkibi:**

- Qazların normal, standart və işçi şəraitdə sərfi anlayışları barədə məlumat;
- Qazların təzyiqinin dəyişməsi zamanı temperatur xassələrinin dəyişməsi qanunauyğunluqları;
- Kompressorların növləri, konstruktiv xüsusiyyətləri, iş prinsipləri və tətbiq sahələri barədə qısa məlumat;
- Kompressor stansiyalarının layihələndirilməsi üçün tələb edilən məlumatlar;
- İş şərainindən asılı olaqaq tətbiq ediləcək kompressorların seçilməsi;
- Kompressorların yerləşdirilməsinə və quraşdırılmasına qoyulan tələblər;
- Kompressor stansiyalarında istifadə edilən avadanlıqların iş prinsipləri, onların seçilməsi və yerləşdirilməsi;
- Texnoloji avadanlıqların yerləşdirilməsinə qoyulan tələblər;
- Texnoloji boru kəmərlərinə qoyulan tələblər, onların hesablanması və sınaqları;

- Tətbiq edilən kompressor aqreqatlarından asılı olaraq soyutma sistemlərinin təyin edilməsi;
- Soyutma sistemləri üçün tətbiq edilən avadanlıqlar, onların seçilməsi və hesablanması;
- Kompressor stansiyalarının istismarı zamanı mürəkkəbləşmələr;
- Aqreqat və stansiya avtomatikası anlayışları, məsafədən nəzarət və idarəetmə;
- Kompressor stansiyalarının şam və drenaj sistemləri;
- Kompressor stansiyasının istismarı zamanı əmək təhlükəsizliyi və yanğından mühafizə tədbirləri.

**Tədrisi aparan təlimçi haqqında:**

İlqar Babayev, “Neftqazelmitədqiqatlayihə” institutunun “Kompressor təsərrüfatı” şöbəsinin rəisi. SOCAR-ın tabeçiliyində olan müəssisələrdə kompressor stansiyalarının yenidənqurulması və yenidən tikintisi layihələndirilməsində və tikintisində layihələrin baş mühəndisi kimi iştirak edib. “Neftqazelmitədqiqatlayihə” institutunundan əvvəl, SSRİ-nin neft-mədən avadanlıqlarının layihələndirilməsi sahəsində aparıcı müəssisələrindən olan “AzİNMAŞ” institutunda aparıcı konstruktor vəzifəsində işləyib. Ondan artıq icadı və iyirmidən artıq səmərələşdirici təklifin müəllifidir. “AzİNMAŞ” institutunda işləyən zaman Amerika, Türkiyə, Rusiya, Gürcüstan və Ukrayna firmalarının sifarişləri ilə yerinə yetirilən konstruktor layihələrində iştirak edib.

**Kursun keçirilmə yeri:**

«Neftqazelmitədqiqatlayihə» İnstitutu

Bütün kurslar institutun daxilində prezentasiya formasında keçirilə bilər. Həmçinin institut daxilində daha da dərindən kurslar təşkil oluna bilər.
Daha ətraflı məlumat almaq üçün kursun koordinatoru ilə əlaqə saxlaya bilərsiniz.
Əlaqə nömrələri: (99412) 521-19-57; Faks (99412) 521-15-15;
e-mail: office.ogpi@socar.az.

Ünvan:

«Neftqazelmitədqiqatlayihə» İnstitutu
AZ 1012, Bakı şəhəri , H.Zərdabi pr.88a